Təhsil haqqının dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi ilə əlaqədar mövcud normativ-hüquqi aktların təkmilləşdirilməsi məqsədilə “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilib.

Yeni dəyişikliyə əsasən, qüvvədə olan və sosial qruplar üçün tətbiq edilən təhsil haqqı imtiyazlarının hər biri “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa əlavə olunub. Bununla yanaşı, təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödəniləcək şəxslərin əhatə dairəsi genişləndirilib.